# COP28-də həllini tapmayan bir çox məsələlər COP29-da uğurla nəticələndi

**Son illər bir çox ölkələrdə zərərli mədən yanacaqlarından imtina və "yaşıl enerji"yə keçid daha çox aktualldır. 1992-ci ildə Rio-de-Janeyroda keçirilən Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Konfransında 154 dövlət tərəfindən imzalanan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) atmosferə istixana qazlarının konsentrasiyalarını sabitləşdirməklə "insanların iqlim sisteminə təhlükəli müdaxiləsi" ilə mübarizə aparmaq üçün beynəlxalq müqavilədir. Konfrans çərçivəsində qlobal iqlim dəyişmələrinə qarşı aparılan mübarizənin nəticələri və qiymətləndirilməsi üçün konvensiyaya üzv ölkələrin rəsmi görüşləri keçirilir. 1995-ci ildən başlayaraq hər il keçirilən tədbirdə əsas məqsəd dünyada baş verən iqlim dəyişmələri ilə mübarizədə irəliləyişi qiymətləndirməkdir.**




Konfrans çərçivəsində inkişaf etmiş ölkələrdə atmosferə istixana qazları emissiyalarının məhdudlaşdırılmasına dair hüquqi öhdəlikləri özündə əks etdirən Kioto Protokolu müzakirə olunur. 2011-ci ildən etibarən keçirilən sessiyaların nəticəsi olaraq 2015-ci ildə iqlim dəyişmələri ilə mübarizədə mühüm beynəlxalq sənəd hesab edilən Paris Sazişi qəbul olunub və bu günə qədər 195 ölkə həmin sazişə qoşulub. 2021-ci ildə Qlazqoda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP26) 26-cı sessiyası zamanı Azərbaycan 2050-ci ilə qədər istixana qazı emissiyalarını 1990-cı ilə qədər olan göstəricilərlə müqayisədə 40 faiz azaltmağa razılaşaraq iqlim dəyişmələri ilə bağlı təşəbbüslə çıxış edib. Bununla da ölkəmiz konfrans çərçivəsində öz fəallığını və birgə əməkdaşlığını qoruyaraq iqlim dəyişmələri ilə mübarizədə "yaşıl layihə"lərə investisiya yatırmaq üçün cəlbedici ölkələrdən birinə çevrilib.

Ötən il dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil edilən Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev də həmin tədbirdə iştirak etdi. Dekabrın 12-də kimi davam edən tədbirdə iqlim dəyişmələrinin nəticələri və istixana qazlarının tullantılarının azaldılması tədbirləri müzakirə olundu. Əsas mövzu Paris sazişinin məqsədinə - planetdə qlobal temperaturun 2°C-dən yuxarı qalxmasının qarşısının alınmasına nail olunmasının ilkin qiymətləndirilməsi idi. Həmçinin konfransda müzakirə edilən məsələlər arasında dünya ölkələri qarşısında 2030-cu ilə qədər bərpaolunan enerji potensialını üç dəfə, enerji səmərəliliyini iki dəfə artırmaq hədəfləri dururdu. Bütün bunlarla yanaşı, inkişaf etməkdə olan ölkələr üçün maliyyə dəstəyinin yetərsizliyi vurğulanırdı.

Dubayda keçirilən tədbirin əsas töhfəsi iqlim dəyişmələri ilə mübarizədə qlobal həmrəyliyi möhkəmləndirmək oldu. Xüsusilə, yeni maliyyə mexanizmlərinin qəbul olunması inkişaf etməkdə olan ölkələrin "yaşıl enerji" keçidini dəstəkləmək üçün geniş imkanlar açdı. COP28-in nəticələri bəşəriyyətin iqlim dəyişmələri ilə mübarizədə daha əmin addımlar atmasına imkan yaratdı. Bundan başqa, Dubayda keçirilən tədbir texnoloji innovasiya sərgiləri və müxtəlif sektorların iqlim dəyişmələrinə uyğunlaşma yollarını nümayiş etdirən panel müzakirələri ilə zəngin idi. Burada təqdim edilən həllər arasında karbon tutma texnologiyaları, enerjiyə qənaət edən tikililər və iqlim dəyişmələrinin təsirini azaldan aqrar innovasiyalar xüsusi yer aldı.

COP28 tədbirində Azərbaycan təşkil edilən sərgidə öz pavilyonu ilə təmsil olunurdu. 254 kvadratmetr sahədə inşa edilən pavilyonda müxtəlif yerli, regional və beynəlxalq təşkilatlarla birgə tədbirlər və seminarlar keçirdi, o cümlədən ölkənin iqlim dəyişmələri ilə mübarizə və onun təsirinin azaldılması istiqamətində gördüyü işləri əks etdirən virtual eksponatlar nümayiş etdirildi. Həmçinin "mina təhlükəsi ilə mübarizə - yaşıl gələcək: minaların ətraf mühitə təsirlərinin azaldılması" adlı yan tədbir də keçirildi. Ümumiyyətlə, ölkəmizin COP28-də iştirakı ona böyük imkanlar və perspektivlər qazandırdı. Üç böyük dövlətlə "yaşıl enerji" sahəsində müqavilələr imzalandı, pilot layihələr ilə bağlı məsələlər müzakirə edildi. "Yaşıl enerji" ilə bağlı müqavilələr BƏƏ, Səudiyyə Ərəbistanı və Avstraliya kimi ölkələrlə "yaşıl enerji" ilə bağlı müqavilələr imzalandı. Ölkəmiz bu tədbirdə daha bir uğur əldə etdi. Belə ki, iqlim dəyişmələrinə verdiyi töhfəyə və dəstəyə görə Azərbaycanın Serbiya, Bolqarıstan və Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr tərəfindən növbəti COP29-a ev sahibliyinə namizədliyi dəstəkləndi. Ermənistan və Bolqarıstan da Azərbaycanın xeyrinə namizədliyini geri çəkərək Bakının ev sahibliyinə dəstəyini ifadə etdi.

"Yaşıl enerji"yə keçid sahəsində fəallıq göstərən ölkəmizdə kifayət qədər külək və günəş enerjisi potensialı var. Həmin potensial təqribən 27,5 min meqavat həcmində qiymətləndirilir. Bunun da 3 mini külək, 23 mini Günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı isə dağ çaylarının payına düşür. Qarşıya qoyulan məqsədlərin reallaşması və bu potensialın hərəkətə gətirilməsi üçün dünyanın bir sıra dövlətləri ilə müvafiq danışıqlar aparılır, tanınmış şirkətlər ölkəmizə dəvət olunur. Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin bərpaolunan enerji sahəsində dünyaca məşhur "Masdar" şirkəti ilə əməkdaşlığı artıq bu sahədə uğurlu addımlardandır. Noyabrın 11-də öz işinə başlayan COP29 konfransı Cənubi Qafqaz regionunda ilk olaraq paytaxt Bakıda baş tutdu. Belə mötəbər tədbirə ev sahibliyi etməsi ölkəmizin regionda söz sahibi olmasının göstəricisidir. Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammiti keçirildi. İki gün davam edən Sammitdə dünya liderləri ətraf mühitin qorunması ilə bağlı müzakirələr apardılar. Elə ilk gün uğurlu nəticə əldə edildi. Dubayda keçirilən COP28 zamanı Paris Sazişinin 6.4 maddəsinin razılaşdırılmasına böyük ümidlər bəslənilsə də bu, mümkün olmamışdı. Bakıda isə tərəflər Sazişin 6.2, 6.4 və 6.8 maddələrini razılaşdırmaqla karbon bazarının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) tam nəzarəti altında fəaliyyətinə uğurlu nəticə əldə edildi. Digər önəmli qərarlardan biri də hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsi yönəltməyi nəzərdə tutan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunmasıdır. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. COP29 Sədrliyinin əsas prioriteti üzrə əldə olunan bu uğur əvvəlki 100 milyard dollarlıq iqlim maliyyəsi məqsədindən əhəmiyyətli dərəcədə yüksəkdir və qlobal investisiyaların yeni dalğasını təmin edəcək.

COP29-da əldə olunan əsas nailiyyətlərdən biri də 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması oldu. Fondun 2025-ci ildən əməli fəaliyyətə başlaması nəzərdə tutulur. Digər bir qərarla 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Proqramın qəbulu üzrə danışıqlar uzun müddətdir ki, davam edirdi və COP29-da sənəd üzrə razılıq bu iqlim sammiti çərçivəsində əldə olundu. Bu baxımdan, BMT-nin Baş katibi Antonio Quterreşin COP29-un nəticəsini "Azərbaycan iqlim böhranı ilə mübarizədə dünya liderlərini bir araya gətirdi və bu, bizim üçün qürurverici hadisədir" hesab etməsi, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stilin nəticəni bəşəriyyət üçün sığorta siyasəti kimi qiymətləndirməsi COP29-un uğurla yekunlaşdığının bariz göstəricilərindəndir. 80-dən çox ölkənin dövlət və hökumət başçılarının, 70 mindən artıq nümayəndənin iştirak etdiyi tədbir öz məqsədlərinə çataraq, gələcək COP-ların da uğurlu olması üçün müsbət presedent yaratdı. Bir sözlə, Bakıda qəbul olunan qərarlar qlobal iqlim dəyişmələri ilə mübarizədə dönüş nöqtəsi sayıla bilər.

Beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəyə malik respublikamız COP29-un da müvəffəqiyyətlə başa çatdırılmasına nail oldu. Prezidentin qeyd etdiyi kimi, COP29 iqlim diplomatiyasında dönüş nöqtəsi oldu və Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşdü. Beləcə, Azərbaycanda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası olduqca əhatəli və maraqlı anlarla yaddaşlara həkk oldu. Bir daha dünyaya sübut olundu ki, Azərbaycan bəşəriyyəti sağlam və sülh şəraitində görmək naminə mübarizə aparır. Bu işdə ölkəmizi dəstəkləyib, birgə əməkdaşlıq etmək və bu yolda çiyin-çiyinə addımlamaq istəyən dövlətlər çoxdur.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**